# Gəncədən başlayan dövlətçilik salnaməsi

**AMEA-nın Gəncə Bölməsində "Gəncədən başlayan dövlətçilik salnaməsi" mövzusunda respublika elmi konfransı keçirilib. Konfrans Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi və onun Diyarşünaslıq İnstitutu tərəfindən təşkil olunub.**




Tədbirə Bakı, Gəncə, Sumqayıt, Naxçıxan, Ağcabədi və Şabranın elmi-tədqiqat və ali təhsil ocaqları, eləcə də dövlət qurumlarından alim və mütəxəssislər qatılıblar. Konfransda, həmçinin qardaş Türkiyənin təmsilçisi, elmlər doktoru, dosent Kenan Kırkpınar da iştirak edib.

Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin AMEA-nın Gəncə Bölməsindəki büstünü ziyarət edərək, müasir dövlətçiliyimizin memarı və qurucusunun xatirəsinə ehtiramlarını bildirib, həmçinin 28 May - Müstəqillik Gününün xalqımız üçün əziz bir tarix olduğunu da yad edərək, abidənin qarşısına güllər qoyublar.

AMEA-nın Gəncə Bölməsinin konfrans zalının foyesində tarixi araşdırmalara dair nəşrlərə və arxeoloji materiallara baxış keçirilib.

Respublika konfransının plenar iclası Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb.

Sonra Gəncənin tarixi haqqında qısa videoçarx nümayiş etdirilib.

Respublika konfransını giriş nitqi ilə AMEA-nın Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev açaraq iştirakçıları salamlayıb, onun işinə uğurlar arzulayıb. O, Azərbaycanın dövlətçilik tarixinin öyrənilməsinin və təbliğinin bu sahədə çalışan alim və tədqiqatçılarımızın başlıca vəzifələrindən olduğunu vurğulayıb və onların elmi fəaliyyətlərini ölkəmizin qüdrətlənməsinə töhfə kimi xarakterizə edib.

Akademik Fuad Əliyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş müasir dövlətçilik strategiyasının onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla və dünyanın hazırki inkişaf qanunauyğunluqlarına uyğun surətdə davam etdirildiyini qeyd edib. Məhz Müzəffər Ali Baş Komandanın qüdrətli dövlət və ordu quruculuğunun təntənəsi kimi, onun rəhbərliyi altında, millətimizin həmrəyliyi və Azərbaycan əsgərinin misilsiz igidliyi sayəsində torpaqlarımızın bütövlüyünün tam bərqərar olduğunu vurğulayıb.

Milli dövlətçiliyimizə tarixin müxtəlif dövrlərində Gəncə şəhərinin böyük töhfələr verdiyini vurğulayan akademik F.Əliyev bu haqda Gəncə Bölməsi tərəfindən çox sayda monoqrafiya və məqalələrin çap edildiyini qeyd edib.

Konfransın moderatoru, AMEA-nın Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru dosent Nərgiz Rəsulova bu elmi tədbirin gedişi və texniki məsələləri haqda məlumat verib.

Gəncə şəhər İcra hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov çıxışında İH başçısı Niyazi Bayramovun konfrans iştirakçılarına salamını çatdıraraq, bugünkü elmi konfransı alimlərin və tədqiqatçılarımızın tariximizin öyrənilməsində daha bir uğuru kimi dəyərləndirib. O, AMEA-nın Gəncə Bölməsinin şəhərimizin elmi və ictimai həyatında daim fəal mövqeyini qeyd edib.

Sonra məruzələr dinlənilib.

Respublika konfransının materialları ayrıca kitab şəklində nəşr olunub.

***

***Qeyd edək ki, AMEA-nın bütün elmi-tədqiqat müəssisə və təşkilatlarında 28 May - Müstəqillik Günü münasibətilə silsilə tədbirlər keçirilib.***

Elm .- 2025.- 30 may(№19).- S.7.